| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 23.04.2019 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 657 |
| **ADI** | Azərbaycan Respublikası Prezidentinin "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" 2003-cü il 4 avqust tarixli 911 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli və "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" 2016-cı il 3 fevral tarixli 762 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-04-2019, Nəşr nömrəsi: 04, Maddə nömrəsi: 655) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 010.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 30.04.2019 |

**Azərbaycan Respublikası Prezidentinin "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" 2003-cü il 4 avqust tarixli 911 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli və "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" 2016-cı il 3 fevral tarixli 762 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Bakı Şəhər İcra Hakimiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 381 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 8, maddə 440; 2006, 3, maddə 229, 6, maddə 498; 2007, 2, maddələr 86, 101, 3, maddələr 217, 227, 7, maddə 714, 9, maddə 867, 10, maddə 948, 12, maddə 1242; 2008, 1, maddə 9, 3, maddələr 173, 179, 6, maddə 499, 8, maddələr 717, 723; 2009, 2, maddə 66, 6, maddələr 419, 421, 422; 2010, 2, maddə 80, 3, maddə 183, 10, maddə 850; 2011, 2, maddə 85; 2012, 11, maddə 1078; 2013, 3, maddə 236, 8, maddə 901; 2014, 9, maddə 1027; 2016, 5, maddə 854, 6, maddələr 1029, 1073; 2017, 5, maddə 840, 8, maddələr 1519, 1521; 2018, 7 (I kitab), maddələr 1445, 1486, 11, maddə 2287; 2019, 1, maddə 76) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.5-ci yarımbəndin 8-ci abzasına "köməkçisi" sözündən sonra "və müşaviri" sözləri əlavə edilsin;

1.2. 2.1.6-cı yarımbəndin 10-cu, 2.1.7-ci yarımbəndin 5-ci və 2.1.8-ci yarımbəndin 1-ci abzaslarında "başçısı Aparatının birbaşa tabeliyində" sözləri "başçısının yanında" sözləri ilə əvəz edilsin;

1.3. 2.3.4-cü yarımbəndin 1-ci abzasında "başçısı aparatının birbaşa tabeliyində" sözləri "başçısının yanında" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 6, maddə 542; 2013, 1, maddə 29, 2, maddə 117, 3, maddə 246, 8, maddə 909, 10, maddə 1155, 12, maddə 1514; 2014, 5, maddələr 477, 487, 9, maddə 1027, 12, maddə 1577; 2015, 3, maddə 271, 9, maddə 1005, 11, maddə 1322 12, maddə 1448; 2016, 2 (II kitab), maddə 273, 5, maddələr 859, 864, 8, maddə 1384, 9, maddə 1464, 10, maddə 1647, 11, maddə 1835; 2017, 3, maddə 353, 4, maddə 545, 5, maddə 807, 8, maddə 1521, 10, maddə 1797; 2018, 2, maddələr 191, 215, 3, maddə 427, 4, maddə 659, 7 (1 kitab), maddə 1462, 10, maddə 2017, 12 (I kitab), maddələr 2538, 2596) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.5-ci bəndin birinci cümləsində (birinci və ikinci hallarda), 1.6-cı bəndin birinci və ikinci abzaslarında, 1.7-ci, 2.8-ci, 2.10-cu bəndlərdə, 2.12-ci bəndin ikinci cümləsində (birinci halda), 2.15-ci, 2.16-cı bəndlərdə, 3.1.7-ci (birinci halda), 3.1.8-ci, 3.1.10-cu, 3.1.13-cü, 3.1.14-cü, 3.1.16-cı, 3.1.18-ci, 3.15.1 -ci, 3.15.8-ci, 3.15.9.2-ci, 4.1.4-cü, 4.1.5-ci (birinci halda), 4.1.6-cı, 4.1.7-ci, 4.1.8-ci (hər iki halda), 4.1.10-cu, 4.1.11-ci, 4.1.13-cü (birinci halda) və 4.1.17-ci yarımbəndlərdə ismin müvafiq hallarında "qurumlar" sözü ismin müvafiq hallarında ’’orqanlar" sözü ilə əvəz edilsin;

2.2. 2.15-ci və 2.16-cı bəndlərdə "qurum" sözü "orqan" sözü ilə əvəz edilsin;

2.3. 4.8.2-ci yarımbənddə "qurumlarda" sözü "hüquqi şəxslərdə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 2 (II kitab), maddə 226; 2017, 12 (I kitab), maddə 2335; 2018, 4, maddə 661) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.7-ci, 7.5-ci, 7.11-ci və 7.12-ci bəndlərdə ismin müvafiq hallarında "dövlət büdcəsindən maliyyələşən qurumlar" sözləri ismin müvafiq hallarında "orqanlar" sözü ilə əvəz edilsin;

3.2. 3.0.4-cü yarımbənddə və 6.4-cü bəndin ikinci cümləsində "qurumların" sözü "orqanların" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2019-cu il
657